AZƏRBAYCAN DƏMİRYOLÇUSU

Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur | MAY 2021-ci il 5 (7031) | İndeks 0006 Qiyməti 40 qəpik

Təsisçilər: “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti və Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsi

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV:
“BU DƏMİR YOLU ÜÇ ÖLKƏNİ VƏ QİTƏLƏRİ BİRLƏŞDİRİR”

“Sizə nəqliyyat sahəsində cərəyan edən son hadisələr haqqında məlumat vermək istərdim. Bu, bizim daxili məsələmiz deyil. Çünki bizim regionda təşəbbüskarı olduğumuz bu layihələr artıq genişlənir və qlobal layihələrə çevrilir.

Biz tərəfdaşlarımız – Gürcüstan və Türkiyə ilə dəmir yolunun inşasının təşəbbüskarı olduq. Bu dəmir yolu üç ölkəni və qitələri birləşdirir. Biz qarşılıqlı ticarət dövriyyəmizi bu dəmir yolu xətti olmasa belə artıra bilərdik. Ancaq bu dəmir yolu Asiyanı Avropa ilə birləşdirməyə lazımdır. Bu, ən qısa nəqliyyat marşrutudur. Ola bilsin ki, qiymət baxımından bu, ən ucuz marşrut deyil və biz tariflərin aşağı salınması üzərində çalışırıq. Lakin bu, ən qısa marşrutdur və yüklərinin qısa biz zamanda nəql edilməsinə üstünlük verən şirkətlər bu nəqliyyat şəbəkəsindən mütləq istifadə edəcəklər.

Şərq-Qərb nəqliyyat dəhlizi əməkdaşlıq və biznes dəhlizidir. Bu layihə artıq Azərbaycanda və qonşu ölkələrdə minlərlə yeni iş yeri yaratmaqdadır və ölkələrimizə böyük mənfəət gətirəcəkdir. Əlbəttə, bizim tranzit ölkə kimi də rolumuz artacaqdır.

Bu layihəni ilhamlandıran enerji şaxələndirilməsinin təmin edilməsi idi. Bir daha qeyd edim ki, biz bu layihəni gürcü və türk qonşularımızla birlikdə icra etməyə başladıq. Hazırda o, genişlənir və artıq bir sıra neft və qaz kəmərlərinin inşası nəticəsində çoxlu sayda ölkələr bu prosesdə iştirak edirlər.

İlk layihə Azərbaycanı Qara dəniz limanları ilə birləşdirən neft kəməri idi. Növbəti kəmər bizi Aralıq dənizindəki liman ilə birləşdirdi. Nəhayət, növbə qazpaylayıcı infrastrukturun yaradılmasına çatdı ki, bu da uğurla həyata keçirilir.

Artıq 7 ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya və Albaniya Cənub Qaz Dəhlizinin üzvüdür. Daha üç Balkan ölkəsi – Xorvatiya, Monteneqro və Bosniya-Herseqovina isə layihənin növbəti mərhələsində bizim tərəfdaşlarımız olacaq.

Bu, həqiqətən də XXI əsrin layihəsidir və onun dəyəri 40 milyard dollardır. Bu layihə Azərbaycan tərəfindən irəli sürülüb və tərəfdaşlarımız, Avropa Komissiyası tərəfindən dəstəklənib. Hətta son iki il ərzində neftin qiymətlərinin aşağı olduğu bir vaxtda bu layihə uğurla həyata keçirilir və onun icrası ilə bağlı bizim maliyyə öhdəliklərimizin ödənişi baxımından heç bir gecikmə olmamışdır. Sərmayələr Xəzər dənizində yerləşən nəhəng qaz yatağı ilə bağlıdır və bu, Bakıdan İtaliya sahillərinə qədər uzanan, bir-biri ilə əlaqəli 3 kəmərdən ibarət vahid bir sistem layihəsidir”.

(16 mart 2017-ci ildə V Qlobal Bakı Forumunun açılışındakı nitqindən)

***

“Bu yolun uzunluğu təxminən 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən

keçir. Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon, ondan sonrakı mərhələdə 17 milyon, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Bir sözlə, Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. Bu yol sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək. Bu yolun istifadəsi zamanı əminəm ki, turizmin inkişafı da geniş vüsət alacaq, turistlərin sayı artacaq. Təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti ölkələrimizin geosiyasi əhəmiyyətini artıracaq və bizim üçün əlavə imkanlar yaradacaq.

(30 oktyabr 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimindəki çıxışından)

BÖYÜK AZƏRBAYCANLI

HEYDƏR ƏLİYEV-98

Bəşər tarixində tək-tək nəhəng simalar - şəxsiyyətlər olub ki, onlar bütün şüurlu həyatını xalqının rifahı yolunda şam kimi əridib. Belə insanlar ümummilli lider səviyyəsinə yüksəlir. Bu adı qazanmaq üçün insan anadan fateh doğulmalıdır ki, qarşıdakı ən yüksək zirvəni fəth edə bilsin, həyatını xalqının yolunda şam kimi əritsin, ən çətin anlarında sinəsini soyuq nəzərlərə sipər etsin.

Anadan olmasının 98 illiyini böyük təntənə ilə qeyd etdiyimiz ümummilli lider Heydər Əliyev məhz belə bir şəxsiyyət olub. O, öz tükənməz enerjisini son damlasına kimi xalqın, millətin yolunda istifadə etməklə, iyirminci əsrdə ikinci dəfə qazandığımız müstəqilliyi qoruyub-saxlamaqla, Azərb¬ay¬ca¬n həqiqətlərini dünyaya çatdırmaqla xalqın ümummilli liderinə çevrildi. Belə insanlara tarixi şəxsiyyət deyirlər. Ona görə yox ki, tarixin hansısa zaman kəsiyində yaşayıblar, ona görə ki, belə şəxsiyyətlər həm də öz titanik fəaliyyətləri ilə tarix yaradırlar - Vətən tarixini. Həyatı və fəaliyyəti ilə Azərbaycanın şərəf tarixinin qızıl səhifələrini yaratmış böyük Heydər Əliyev kimi.

O, BÖYÜK AZƏRBAYCANLI idi. O, bizə bu Vətəni sevməyin yolunu göstərdi. Vətəni ancaq belə böyük sevgi ilə sevmək olardı. Çünki bütün müqəddəs olanları sevmədən qorumaq mümkün deyil.

İndi doğma Azərbaycanımız dünya xəritəsində öz yerini müəyyən edib, inkişaf etmiş ölkələrlə bir sırada dayanır. Onun ölkəmizə rəhbərlik etdiyi illər Azərbaycan əzəmətli bir inkişaf yolu keçmişdir. Azərbaycanın demokratik, hüquqi bir dövlətə çevrilməsi üçün o böyük siyasi xadimin iradəsi sayəsində bir sıra ağır zamanlardan keçməli olduq. Hələ keçmiş sovet dönəmində Azərbaycanda və SSRİ hökümətində rəhbər vəzifələrdə çalışarkən öz doğma yurdunun inkişafı üçün əlindən gələni etmişdi.

İyirminci əsrin sonlarında doğma Azərbaycanımızda idarəolunmaz bir vəziyyət yaranmışdı. O zaman ölkənin bütün sütunları laxlamışdı. Həm xaricdən, həm də daxildən təzyiqlərə, hədələrə məruz qalan ölkəmiz nicat yolunu tapmaqda çətinlik çəkirdi. Belə bir ağır vəziyyətdə bu gözəl Vətəni azadlığa çıxarmaq üçün Əliyev iradəsi lazım idi. Ona görə də milyonlarla insan o zaman Naxçıvanda yaşayan Heydər Əliyevə ümid bəsləyirdi.

Vətənin belə ağır günündə, xalqın ona səslənən çağırışına biganə qala bilməyən o böyük insan 15 iyun 1993-cü ildə yenidən Azərbaycanın rəhbərliyinə qayıtdı. O, yenidən siyasi rəhbərliyə qayıdışı ilə uçuruma yuvarlanmaqda olan ölkəmizi bir çox bəlalardan xilas etdi. Təsadüfi deyil ki, məhz həmin gün Azərbaycanın tarixinə Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyevin o tarixi qayıdışı nəticəsində Azərbaycan bir dövlət kimi məhv olmaq təhlükəsindən, hansısa dövlətlərin müstəmləkəsinə çevrilməkdən qurtuldu.

O tarixi qayıdış olmasaydı, bu gün ölkəmizin taleyinin necə olacağı barədə düşünmək çox çətin olardı. Bizim yaşımız imkan vermir ki, həmin illərdə nələrin baş verdiyini tam dəqiqliyi ilə bilək. Çünki Heydər Əliyevin gəlişi ilə tarixə həkk olunan Qurtuluş Günü məndən və həmyaşıdlarımdan yeddi yaş böyükdür. Amma bizdən böyüklərin danışdıqlarından, sonradan mətbuatdan oxuduqlarımızdan bilirik ki, o tarixi qayıdış olmasaydı Azərbaycan xarici düşmənlərin və daxili riyakarların maraq dairəsində parçalana bilərdi. Cəbhədə atəşkəsə nail olunmasaydı, indi hansı mənzərə yaranardı? Bütün bunların qarşısı Heydər Əliyevin bir rəhbər, bir Vətən oğlu kimi dəmir iradəsi sayəsində alındı.

1994-cü ilin oktyabr ayında dünyaya səs salan «Əsrin müqaviləsi" kimi nəhəng bir layihəni həyata keçirmək üçün ancaq Heydər Əliyev iradəsi lazım idi. O iradə ki, zaman-zaman insanların düşüncəsində əfsanəyə, nağıla çevri¬lən¬ləri reallaşdırdı. Xalqın oğlu xalqın yüz illər sonrakı taleyini həll etmək üçün çiynini ağır bir işin altına verdi.

İndi dövlətimizin daxili və xarici siyasətinin uğurla həyata keçirilməsi ölkədə Heydər Əliyev ideyalarının yaşamsının nə¬ticəsidir. O bilirdi və həmişə xüsusi olaraq qeyd edirdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadir olacaq. Ona görə də ümummilli lider iqtisadiyyatın dirçəldilməsinə xüsusi önəm verirdi. Böyük siyasətçi Heydər Əliyevin onda ölkə rəhbərliyinə yenidən qayıtması tarixi bir şans idi. Biz hamımız yaxın tarixin həm müşahidəçiləri, həm də iştirakçılarıyıq. Bu hadisələr bizim gözümüzün qarşısında baş verib.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə gənclərin təhsil almasına, onların Vətənə layiq bir övlad kimi yetişməsinə böyük diqqət göstərmişdir. 1970-1987-ci illərdə məhz onun təşəbbüsü və qayğısı ilə 15000-dən artıq Azərbaycan gənci keçmiş SSRİ-nin müxtəlif şəhərlərindəki ali məktəblərə oxumağa göndərilmişdir. Onların əksəriyyəti bu gün ölkəmizin idarəetmə orqanlarında, müxtəlif strukturlarda rəhbər vəzifələrdə çalışır, vaxtilə onlara göstərilən etimadı əməli işlə doğruldurlar.

Ulu öndər Heydər Əliyev 31 avqust 1998-ci ildə 1970-1987-ci illərdə ölkədən kənarda təhsil almış həmin mütəxəssislərlə görüş keçirmişdi. Görüşdə çıxış edən ulu öndər bir məsələni xüsusi vurğulamışdı: "Siz Azərbaycanın müstəqillik yolu ilə getməsində fəal iştirak etməlisiniz. Bəli, indi müstəqil Azərbaycana, gənc, yüksək bilikli, ali elmi dərəcələri olan kadrlar, yaxşı mütəxəssis lazımdır. Onlar Azərbaycanda çoxdur, siz də onların bir hissəsisiniz".

(Davamı 3-cü səhifədə)

BÖYÜK AZƏRBAYCANLI

HEYDƏR ƏLİYEV-98

(Əvvəli 2-ci səhifədə)

Böyük siyasətçi Heydər Əliyev Azərbaycanın mədəniyyət tarixinin zənginləşdirilməsi istiqamətində bir sıra mühüm qərarlar qəbul etmişdir. Bu sahədə görülən işlər: ədəbiyyat, mədəniyyət, incəsənət xadimlərinin əməyinin qiymətləndirilməsi, onlara dövlət səviyyəsində qayğının göstərilməsi saymaqla qurtarmayan xoş məramlı əməllər Heydər Əliyev zəkasının göstəricisi idi. O, 18 iyun 2001-ci ildə «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» sərəncam imzalamaqla Azərbaycanın mədəni tarixində yeni bir eranın başlanğıcını qoydu. O böyük insan Azərbaycan dili haqqında fikirlərini belə ifadə etmişdi: "Dilimiz çox zəngin və ahəngdar bir dildir, dərin kökləri var. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm".

Zaman-zaman doğma Azərbaycan dilinin qrafikası dəyişdirilmiş, maariflənmənin yolunda bir süni maneə yaradılmışdır. Amma bu tarixi qərardan sonra latın qrafikalı Azərbaycan əlifbası tətbiq olundu. Azərbaycan tarixinin, ədəbiyyatının nadir inciləri latın qrafikalı əlifba ilə çap olunmağa başlandı. Bu proses indi də uğurla davam etdirilir.

Azərbaycanın böyük oğlu, dünya siyasətinin nəhənglərindən biri, xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyev 2003-cü il dekabrın 12-də ömrünün 81-ci ilində dünyasını dəyişdi. Həmin gün bütün Azərbaycan Fəxri Xiyabana gəlmişdi. İnsanlar böyük öndərlə son vidaya tələsirdi. Hər kəsin ürəyində bir nisgil vardı.

Ömrünü bu yurdun azadlığı, müstəqilliyi uğrunda şam kimi əridən bir siyasi xadim əbədiyyətə qovuşdu. Fəxri Xiyaban minlərin, milyonların ziyarətgahına çevrildi.

Heydər Əliyevin fiziki yoxluğundan əziyyət çəksək də, onun ideyalarının Azərbaycanda hakim olması bizə təskinlik verir. Bu gün ölkəmizdə onun yarımçıq qalmış arzularını xalqımız Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başçılığı altında reallaşdırır. İndi Azərbaycanın haqq səsi dünyanın ən yüksək tribunalarından eşidilməkdədir. Biz buna Heydər Əliyev siyasi xəttinə sadiq qalmağımızla nail olmuşuq. Ölməzlik budur, əbədiyaşarlıq budur.

Öz həyat və fəaliyyəti ilə ölməzlik zirvəsinə yüksələn Heydər Əliyevin keçdiyi ömür yolu bizim üçün

zəngin həyat məktəbidir. Bu ömrün hər anından bizim öyrənəcəyimiz çox şeylər var. Çünki o böyük insanın ömür yolu Azərbaycan tarixinin şərəfli bir hissəsidir. Biz o tarixi öyrənməli və bizdən sonra gələn nəsillərə çatdırmalıyıq. Bizdən sonra gələnlər də bilməlidirlər ki, Azərbaycanın dünyanın hegemon dövlətləri ilə bir sırada dayanması, beynəlxalq qurumlara tam hüquqlu üzv olması, haqq səsimizin beynəlxalq kürsülərdən eşidilməsi Heydər Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir.

Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış bir dövr var. Bu dövr 1969-2003-cü illəri əhatə edir. Həmin illər ölməz bir insanın Vətəninə, xalqına xidmət göstərdiyi illərdir. O illərdə tarixə yazılan hər səhifə xalqımızın həyatında yeni bir eraya çevrildi. Dünyanın məşhur ictimai-siyasi xadimləri Heydər Əliyev dühasını həmişə yüksək qiymətləndiriblər. Türkiyə Respublikasının keçmiş Prezidenti Əhməd Necdət Sezər demişdir: «Uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm».

İndi dünyanın hər yerindən bəşəriyyəti haqqa, ədalətə səsləyən bir səs də aydın eşidilməkdədir. Bu Azərbaycan həqiqətlərinin səsi, bu həqiqətlərin carçısı olan Heydər Əliyevin səsi, onun astronomik fəaliyyətinin əks-sədasıdır. Fiziki yoxluğundan sonra da yaddaşlarda yaşayanlar ən uca zirvəni fəth etmiş olurlar. Heydər Əliyev də belə müdrik insanlardan biri idi. Həmişə bu Vətənin oğlu olmağı ilə fəxr edən, ona xidmət etməkdən qürur duyan Heydər Əliyevin fəth etdiyi zirvənin bir adı var: ÖLMƏZLİK! Zaman-zaman bu zirvəyə gedən yolun yolçuları olmaqla biz, əslində, Heydər Əliyevin qurub-yaratdığı və bizlərə miras qoyduğu Azərbaycanın varlığını qoruyuruq.

Hələ bu dünyada tam öyrənilməmiş bir Heydər Əliyev irsi var. Harda çətinə düşsək, o irs bizim köməyimizə çata bilər. Ona görə də bu irsi sətir-sətir, səhifə-səhifə oxumalı, oxuduqlarımızı, öyrəndiklərimizi təbliğ etməliyik.

Zaman ən böyük meyardır,-deyiblər. Ötüşdükcə arxada qalan illərin yaxşısını yamanından ayırır, hər kəsin, hər şeyin dəyərini, qiymətini müəyyən edir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi qırx ilə yaxın bir dövrü Azərbaycan tarixinin qızıl dövrü adlandırmaq olar. Çünki bu dövr ərzində görülən nə vardısa, xalqın gələcəyinə hesablanmışdır. Dünyada Vətənə xidmətdən şərəfli bir vəzifə ola bilərmi…

O, belə bir şərəfli missiyanın daşıyıcısı idi. Təsadüfi deyil ki, onun Azərbaycana rəhbərlik etdiyi dövrü «Əsrə bərabər qırx il» adlandırırlar. Özünün tükənməz enerjisi ilə əfsanəvi bir ömür yaşadı. Adı kimi əməlləri də əfsanələşdi, beləcə bir millətin, böyük türk dünyasının, mütərəqqi bəşəriyyətin könül dünyasında öz əbədi yerini müəyyənləşdirdi.

Böyük azərbaycanlı olan Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri bu gün Vətənini, torpağını sevən hər kəsin həyat kredosuna çevrilib.

Biz onu həmişə Azərbaycanla bir yerdə görürük. Onun müqəddəs ruhu, bir millət atası olaraq, həmişə başımız üzərindədir, yenə həmişəki kimi, hamıdan və hər şeydən yüksəkdə.

... Sevginin, duyğunun, düşüncənin zamanı olmur ki… Heydər Əliyev bu yurdu, bu xalqı əbədilik sevdi. Qədim bir millətin, zəngin dövlətçilik ənənələrinə malik olan bir dövlətin birliyi onun sevgisindədir, böyük ürəyindədir. O, hər şeyi sevə-sevə yaratdı. Özünün dediyi kimi: «Mənim yaratdığım hər bir şey mənim üçün çox əzizdir. Zavod da, fabrik də, elektrik stansiyası da, yol da, körpü də, ev də, bina da, saray da, hər bir şey, amma mənim üçün hər şeydən əziz mənim xalqım, mənim vətənim, mənim torpağımdır».

Vasif SÜLEYMAN

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV:
“ŞƏHİDLƏRİMİZİN İNTİQAMINI BİZ DÖYÜŞ MEYDANINDA ALDIQ”

“Əziz hərbçilər, bu gün sizə dövlətimizin yüksək hərbi mükafatları təqdim edilir. Bu mükafatlar müharibədən sonra mənim təşəbbüsümlə təsis edilmişdir. Mükafatların adlarını da özüm vermişəm – “Vətən müharibəsi qəhrəmanı” ulduzu, “Zəfər” və “Qarabağ” ordenləri yeni təsis edilmiş yüksək hərbi mükafatlardır.

Xahiş edirəm ki, təntənəli mərasimimizin əvvəlində Vətən müharibəsində qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Əyləşin. Allah onların yaxınlarına səbir versin. Şəhidlərimizin yaxınları üçün təsəlli odur ki, onlar öz canlarını Vətən uğrunda qurban verdilər. Təsəlli odur ki, torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Eyni zamanda, təsəlli odur ki, şəhidlərimizin intiqamını biz döyüş meydanında aldıq. Şəhidlərimizin qanı yerdə qalmadı. Həm İkinci, həm də Birinci Qarabağ müharibəsinin şəhidlərinin qanını döyüş meydanında aldıq, o cümlədən günahsız insanların, Xocalı qurbanlarının, digər mülki şəxslərin intiqamını düşməndən döyüş meydanında aldıq. Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etdik, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq.

Bugünkü təntənəli mərasimin yeri təsadüfən seçilmədi. Biz bu mərasimi Yeni Bulvarda keçiririk. Yeni Bulvar mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl salınmışdır. Yeni Bulvarın uzunluğu 12 kilometrdir. Müqayisə üçün deyə bilərəm ki, köhnə bulvarın uzunluğu cəmi 3 kilometrdir. Bu bulvarın salınması dövlətimizin qüdrətini göstərirdi, xalqa olan qayğını göstərirdi. Bu, yenilik idi, inkişaf idi, bu, bizim gücümüzün təzahürü idi. İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir. Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI

əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq.

Biz inkişaf edərək torpaqlarımızı azad etdik. Çünki inkişaf bizim Qələbəmizin əsasıdır. Əgər iqtisadi inkişaf olmasaydı, əgər bizim iqtisadi müstəqilliyimiz olmasaydı, biz bunu təmin etməsəydik, lazımi dərəcədə lazım olan müasir silahlar əldə edə bilməzdik. Ona görə bu təntənəli mərasimin burada keçirilməsində böyük rəmzi məna var. Yenilik, inkişaf, güc – bunlar əsas amillərdir. Bir də Vətən sevgisi. Çünki bax, bu bulvarın ərsəyə gəlməsində, bunun təməlində Vətən sevgisidir. Çünki bu zona əvvəllər sənaye zonası idi və burada bir çox köhnəlmiş, sıradan çıxmış müəssisələr fəaliyyət göstərirdi. Bütün bu ərazi təmizləndi, yeni bulvar salındı. Sağ tərəfdə olan boş yer də təmizlənib sərəncama götürülüb.

Bu mərasimin burada keçirilməsinin digər səbəbi burada yerləşən Hərbi Qənimətlər Parkıdır. Bu Hərbi Qənimətlər Parkının açılışını bu gün etdim. Orada düşmənin nümayiş etdirilən dağıdılmış və qənimət kimi götürülmüş texnikası bir daha bizim gücümüzü göstərir, bir daha düşmənin məğlubiyyətini göstərir. Burada nümayiş etdirilən texnika məhv edilmiş və qənimət götürülmüş düşmən texnikasının kiçik bir hissəsini təşkil edir. 125 artilleriya topu, 366 tank, 7 “S-300” zenit-raket kompleksi, 50-dən çox digər zenit-raket kompleksləri, 522 yük avtomaşını və digər texnikalar məhv edilmişdir və qənimət kimi götürülmüşdür.

Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər.

Otuz il ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmırdı. Ancaq bizim problemlərimiz ondan daha əvvəl başlamışdı, daha dəqiq desəm, 1987-ci ildə. Çünki 1987-ci ildə Heydər Əliyevin bütün vəzifələrdən, o cümlədən Siyasi Büronun üzvü vəzifəsindən uzaqlaşdırılması ilə ermənilərin əlinə fürsət düşdü və onlar bu fürsətdən istifadə etdilər. Heydər Əliyevin istefasından iki həftə keçməmiş bir erməni millətçisi - Qorbaçovun müşaviri, onun sağ əli Aqanbekyan hələ 1987-ci ildə Fransada olarkən Fransa qəzetinə müsahibə verərək demişdir ki, Dağlıq Qarabağ Ermənistana birləşməlidir. Heydər Əliyevin dövründə heç vaxt buna cürət edə bilməzdilər. Ona görə dünya ermənilyinin əsas hədəfi Heydər Əliyev idi. Çünki bilirdilər, o, nə qədər vəzifədədir, heç vaxt imkan verməz ki, erməni millətçiliyi baş qaldırsın.

Müstəqillik əldə olunandan sonra nələr baş verdi? Müstəqillikdən dörd ay sonra Xocalı soyqırımı törədildi. Ermənistan və Sovet İttifaqının 366-cı alayı hərbi cinayət törətdi, vəhşilik törətdi. Dinc insanları qətlə yetirdi. Onların arasında uşaqlar, qocalar, qadınlar vardı. Xocalı soyqırımı bu gün dünya tərəfindən tanınır. Ondan çox ölkə bu soyqırımını rəsmən tanıyıbdır. Xocalı soyqırımından üç ay keçəndən sonra Şuşa və Laçın işğal altına düşdü.

Məhz o vaxt faktiki olaraq hakimiyyətə gəlmiş və bu gəlişini rəsmiləşdirmək istəyən AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa və Laçın işğal altına düşdü. Çünki onlar üçün hakimiyyətə gəlmək hər şeydən vacib idi.

Məhz Azərbaycan xalqının dəstəyinə arxalanaraq Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələndən sonra bütün xoşagəlməz hallara son qoydu, bütün qanunsuz silahlı birləşmələri tərksilah etdi, sabitlik, qayda-qanun yaradıldı və nizami ordu quruculuğu başlandı.

Mən 2003-cü ildə hakimiyyətə gələrək, Prezident vəzifəsinə başlayaraq söz vermişdim ki, ərazi bütövlüyünü qoruyacağam və bu sözə əməl etdim. Azərbaycanın ərazi bütövlüyü 17 il ərzində qorundu.

Biz danışıqlar masasında prinsipiallıq göstərərək, eyni zamanda, güclü ordu yaradırdıq. Bütün bu 17 il ərzində bizim əsas büdcə xərclərimiz hərbi xərclər olmuşdur. Biz istədiyimizə nail olduq. Siyasi məsələlər hər şeyi həll edir. Biz tərəfdaş ölkələrdən elə texnika, elə silahlar almışıq ki, əgər bir mənbədən olan texnikaya bir şey olarsa, bizim ehtiyat imkanlarımız var və İkinci Qarabağ müharibəsi bunu göstərdi.

Azərbaycan xalqının müharibə ilə bağlı geniş təsəvvürü var. Vaxt keçdikcə ayrı-ayrı əməliyyatlar haqqında da məlumat verəcəyik. Ancaq 44 günlük Vətən müharibəsi bizim gücümüzü, iradəmizi, birliyimizi göstərdi. Göstərdi ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Biz düşməni hər gün qovurduq, hər gün. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində bir dəfə də geriyə addım atmamışdılar, halbuki müharibələrdə hücumlar, geriyə dönmələr, manevrlər olur. Ermənistan bir dəfə də uğurlu əməliyyat apara bilməmişdir. Ermənistan ordusunda 10 min fərari olub, özləri bunu etiraf ediblər. İndi onları əfv etmək istəyirlər. İndi 5 minini əfv etmək istəyirlər. Bəs qalan 5 min? Yəqin ki, çıxıb gedib, artıq Ermənistanda yoxdur. Azərbaycan Ordusunda, Silahlı Qüvvələrimizdə bir nəfər də fərari olmamışdır.

Bu təntənəli mərasim bu gün keçirilir. Bunun səbəbləri yəqin ki, sizə bəllidir. İlk növbədə, yeni hərbi mükafatlar hazırlanmalı idi, onlar yox idi. Onların dizaynı hazırlanmalı idi, onların hazırlanması təşkil edilməli idi. Bu, vaxt apardı. Eyni zamanda, pandemiyaya görə qapalı yerlərdə belə mərasimlərin keçirilməsi mümkün deyil və hava şəraiti də uyğun olmalı idi. Bir də ki, Hərbi Qənimətlər Parkı hazır olmalı idi. Mən istəyirdim ki, biz Parkın açılışı günündə görüşək və bu yüksək mükafatlar sizə təqdim edilsin və Parkın ilk ziyarətçiləri siz olasınız. Buna görə bir qədər vaxt apardı. Ancaq bu gün bu mərasim keçirilir. Sizə Ali Baş Komandan kimi dərin təşəkkürümü bildirmək istəyirəm. Siz xalqımızın üzünü ağ etmisiniz, dünya azərbaycanlılarının üzünü ağ etmisiniz. Bizim Qələbəmiz təkcə xalqımızın qələbəsi deyil, bütün türk dünyası bizim qələbəmizlə fəxr edir. Biz yeni reallıq yaratmışıq. Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq. Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır.

Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Yaşasın Azərbaycan!”

(Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında çıxışından)

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV:
“AZƏRBAYCAN XALQI 101 İL BUNDAN ƏVVƏL BİZİM ƏLİMİZDƏN ALINMIŞ ZƏNGƏZURA QAYIDACAQ”

“Bildiyiniz kimi, birinci pilot layihə Zəngilan rayonunda icra ediləcək - “Ağıllı kənd” layihəsi. Bu layihə üç kəndi – 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edəcək və yəqin ki, yaxın gələcəkdə bu layihənin təməli də qoyulacaq. Zəngilanda olarkən mənə bu layihə ilə bağlı məruzə edildi və indi təməlqoyma mərasimi üçün hazırlıq işləri aparılır. Ümid edirəm ki, gələn il artıq bu ilk pilot layihə icra ediləcək və beləliklə, əvvəlcə keçmiş köçkünlərin birinci qrupu öz doğma torpaqlarına qayıdacaqlar.

Bütün şəhərlərin baş planları hazırlanır. Hesab edirəm ki, bu, ilk növbədə, Ağdam şəhərini əhatə edəcək. Ümid edirəm, may ayının sonuna qədər Ağdam şəhərinin baş planının ilkin versiyası təqdim olunacaq və əlbəttə ki, ondan sonra, o cümlədən Ağdam rayonunun ictimaiyyəti ilə birlikdə müzakirə ediləcək. Digər şəhərlərimizin də baş planları hazırlanır.

Kəndlərin bərpasına gəldikdə, burada da biz işlərimizi mərhələlərə bölməliyik. İlk növbədə, biz mövcud infrastruktura yaxın olan kəndləri bərpa etməliyik. Bu da təbiidir, çünki həm vaxt, həm səmərəlilik baxımından bu, daha məqsədəuyğundur. Ona görə Ağdam, Füzuli, Cəbrayıl rayonlarının keçmiş təmas xəttinə yaxın olan kəndlərinin bərpası ilə bağlı müvafiq göstərişlər verilib.

Xaricdən bir çox təkliflər gəlməkdədir, bir çox xarici tərəfdaşlarımız Qarabağın bərpası işində fəal iştirak etmək istəyirlər. Biz də, əlbəttə ki, bunu alqışlayırıq. Təbii ki, bütün təkliflər təhlil ediləcək və müzakirə olunacaq. Biz bu işləri maksimum səmərə ilə görməliyik ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlar üçün ən gözəl şərait yaradılsın.

Bildiyiniz kimi, Füzuli Beynəlxalq Hava Limanının tikintisi sürətlə gedir və yaxın gələcəkdə Zəngilan rayonunda yeni hava limanının tikintisinə start veriləcəkdir. Üçüncü hava limanı Laçın rayonu ərazisində inşa ediləcək. Bu, bir qədər sonra baş verəcək. O bölgədə hələ ki, qar əriməyib. Hava limanı üçün nəzərdə tutulan yerdə indi praktiki işlərin görülməsi mümkünsüzdür. Gözləyirik, yəqin ki, may-iyun aylarında artıq bu istiqamətdə də işlərə start veriləcək.

Yəni, gördüyünüz kimi, biz bütün istiqamətlər üzrə dərhal bu işlərə başlamışıq. Müharibə başa çatandan dərhal sonra bütün bu işlərə start verildi. Çox böyük həcmli bir işdir. Çünki mən demişəm, bir daha demək istəyirəm, azad edilmiş torpaqların ərazisi 4 Lüksemburqa bərabərdir. Yəni, hesab edirəm ki, bu, təsəvvür üçün, kifayət qədər aydın mənzərədir. Dörd Lüksemburq boyda ərazini biz sıfırdan tikməliyik, qurmalıyıq. Çünki mənfur düşmən torpaqlarda hər şeyi, bütün binaları dağıdıb. İndi bunu bütün xarici qonaqlar da görürlər. Öz gözləri ilə erməni vəhşiliyini görürlər. Bu, misli görünməmiş vəhşilikdir. Dünya tarixində bir çox müharibələr olub. Ancaq bu qədər qəddarlıq, bu qədər düşmənçilik, məncə, dünya müharibə tarixində olmayıb. Hətta İkinci Dünya müharibəsi ilə müqayisə etsək, o vaxt belə vəhşiliyə yol verilmirdi, dini abidələr dağıdılmırdı. Bütün bunları biz yaxşı bilirik. Erməni faşizmi bütün ölkələrdə olmuş faşizmlərin ən eybəcəridir, ən qəddar faşizmdir. Biz bu müharibədə təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, həm də erməni faşizmini məhv etmişik. Bu, bizim tarixi missiyamızdır - təkcə Azərbaycan xalqı qarşısında yox, dünya qarşısında. Erməni faşizmi məhv edilib. Onu məhv edən Azərbaycan xalqı olmuşdur. Bu gün Ermənistanda bəzi revanşist qüvvələr baş qaldıranda bilməlidirlər ki, onların başı lazım olarsa, istənilən zaman əziləcəkdir. Biz imkan verə bilmərik ki, erməni faşizmi yenə baş qaldırsın. Biz imkan verə bilmərik, Ermənistan yenə də öz ordusunu o vəziyyətə gətirib çatdırsın ki, bizə hansısa bir təhdid olsun. Biz əgər mümkün olan təhdidi təsbit etsək, dərhal onu məhv edəcəyik. Bunu hər kəs bilməlidir - həm Ermənistan, həm də onun havadarları. Çünki bu, milli müdafiədir, milli təhlükəsizlik məsələsidir. Bununla paralel olaraq, biz əməkdaşlığa da hazırıq - baxmayaraq ki, Ermənistan azərbaycanlılara qarşı dövlət səviyyəsində soyqırımı törətmişdir. Baxmayaraq ki, bizim bütün tarixi, dini abidələrimiz dağıdılıb, biz gələcəyə baxmalıyıq. Biz, əlbəttə ki, erməni vəhşiliyini heç vaxt unutmayacağıq. Bu gün Ermənistanda böyük hay-haraya səbəb olan Hərbi Qənimətlər Parkının yaradılmasının əsas məqsədi odur ki, Azərbaycan xalqı bu vəhşiliyi heç vaxt unutmasın. Biz heç vaxt unutmamalıyıq. Biz bunu heç vaxt bağışlamayacağıq. Bunu hər kəs bilsin. Amma bununla paralel olaraq, biz öz maraqlarımızı təmin etmək üçün lazımi addımları atmalıyıq. Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik. Necə ki, mən müharibədən əvvəl və müharibə dövründə demişdim ki, bizim torpağımızdan öz xoşunuzla rədd olun, yoxsa sizi zorla çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq.

Bizim əsas rəqibimiz zamandır. Çünki dəmir yolunun, avtomobil yolunun çəkilişi vaxt tələb edir. Ona görə bütün güclər səfərbər olunub ki, bu layihə icra edilsin. Beləliklə, Azərbaycan xalqı 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura qayıdacaqdır”.

(Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsindən)

"AZƏRBAYCAN DƏMİR YOLLARI" QSC-NİN MÜŞAHİDƏ ŞURASININ İLK İCLASI KEÇİRİLİB

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli Sərəncamına əsasən yaradılmış "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının ilk iclası keçirilib.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Müşahidə Şurasının sədri, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyevin sədrliyi ilə keçirilən iclasda Müşahidə Şurasının üzvləri, "Azərbaycan Dəmir Yolları" QSC-nin İdarə Heyətinin sədri Cavid Qurbanov və digər üzvləri iştirak ediblər.

İlk olaraq "Azərbaycan Dəmir Yolları" QSC-nin Müşahidə Şurasının sədri və üzvləri göstərilən etimada görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Müşahidə Şurasının sədri R.Nəbiyev iclasda vurğulayıb ki, son illər nəqliyyat infrastrukturunun, o cümlədən dəmir yolu nəqliyyatı sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi, ölkənin dəmir yolları şəbəkəsinin genişləndirilməsi, müasirləşdirilməsi və yenilənməsi istiqamətində intensiv işlər aparılıb. Həmçinin beynəlxalq və regional nəqliyyat dəhlizlərinin, Bakı-Tbilisi-Qars və "Şimal-Cənub" layihələrinin reallaşması prosesində Azərbaycanın aktiv iştirakı təmin edilib.

"Azərbaycan Dəmir Yolları" QSC ölkəmizin regional müstəvidə rəqabət qabiliyyəti və tranzit potensialının gücləndirilməsində mühüm rola malikdir. Səhmdar cəmiyyət regionda özünün aparıcı mövqeyini qoruması üçün bundan sonra daha böyük əzmlə çalışmalıdır", – deyə R.Nəbiyev qeyd edib.

Müşahidə Şurasının sədri xatırladıb ki, ölkə başçısının rəhbərliyi ilə Azərbaycan iqtisadiyyatı yeni islahatlar mərhələsinə qədəm qoyub. Bu yeni mərhələdə ölkədə iri dövlət şirkətlərinin maliyyə-təsərrüfat fəaliyyətində dayanıqlılığın artırılması, onların gəlir və xərclərinə nəzarətin daha da gücləndirilməsi, paylarının nəzarət zərfi dövlətə məxsus hüquqi şəxslərin idarə olunmasının təkmilləşdirilməsi qarşıda duran əsas çağırışlardandır.

"Azərbaycan Dəmir Yolları" QSC-nin fəaliyyətinin təkmilləşdirilməsi və daha da inkişafına yönəldilmiş addımların atılmasının Müşahidə Şurasının əsas vəzifəsi olduğunu vurğulayan R.Nəbiyev deyib: "Müşahidə Şurası QSC-nin İdarə Heyəti ilə əməkdaşlıq müstəvisində çalışaraq qabaqcıl təcrübə və müasir idarəetmə çərçivəsində QSC-nin fəaliyyətində səmərəliliyi artırmaq, onun idarə edilməsini müasir korporativ idarəetmə standartları nəzərə alınmaqla təkmilləşdirmək istiqamətində fəaliyyət göstərəcək".

İclasda, həmçinin Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarından irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsədilə həyata keçiriləcək tədbirlər, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin korporativ idarəetmə sisteminin prinsipləri, Müşahidə Şurasının fəaliyyətinin təşkili, şirkətin idarə olunmasında Azərbaycan İnvestisiya Holdinqinin rolu və digər məsələlərlə bağlı müzakirələr aparılıb.

AZƏRBAYCAN VƏ GÜRCÜSTAN DƏMİR YOLLARI ARASINDA ƏMƏKDAŞLIĞA DAİR SƏNƏD İMZALANIB

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətində "Gürcüstan Dəmir yolları" SC-nin Baş direktoru David Peradzenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub.

Görüşdə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov ölkələrimiz arasında dəmir yolu sahəsində mövcud əməkdaşlıq əlaqələrinin perspektivindən danışıb. Qeyd olunub ki, nəqliyyat sahəsi əməkdaşlığın əsas istiqamətlərindən biri kimi hər zaman dövlət tərəfindən diqqətdə saxlanılır və bu məqsədlə Azərbaycan bütün əhəmiyyətli beynəlxalq layihələrin reallaşdırılmasında fəal iştirak edir. Coğrafi üstünlüklər logistika, tranzit imkanlarını daha da genişləndirir və Azərbaycan önəmli beynəlxalq nəqliyyat qovşağına çevrilib. Cəmiyyət sədri dəmir yolu sahəsində həyata keçirilən islahatlardan danışıb, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tranzit daşımalarda əhəmiyyətini vurğulayıb. Bildirilib ki, "Şimal-Cənub" və "Cənub-Qərb" dəhlizləri, Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu kimi layihələrin fəaliyyətinin gücləndirilməsində məqsəd iştirakçı ölkələrin tranzit potensialının artırılmasıdır.

"Gürcüstan Dəmir yolları" SC-nin Baş direktoru David Peradze əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün imkanlardan söhbət açıb. Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısının qlobal səciyyə daşıdığını bildirən qonaq bu layihənin regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa böyük töhfə olduğunu diqqətə çatdırıb.

Görüşdə bu marşrutun gələcəkdə inkişaf istiqamətləri, Azərbaycan və Gürcüstan ərazisindən keçən marşrutlara əlavə yüklərin cəlb olunması məqsədilə görülən işlər barədə məlumat verilib. Qarşılıqlı maraq kəsb edən məsələlər, TransXəzər beynəlxalq nəqliyyat marşrutu çərçivəsində əməkdaşlıq və digər mövzularda müzakirələr aparılıb.

Sonra hər iki ölkənin dəmir yolları rəhbərləri arasında ikitərəfli əməkdaşlığa dair protokol imzalanıb.

AZƏRBAYCAN DƏMİR YOLLARI BEYNƏLXALQ İSO 45001-2018 STANDARTI SERTİFİKATINI ALIB

Standartın tətbiqində əsas məqsəd "Azərbaycan Dəmir Yolları" QSC-nin əməkdaşları üçün daha sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasıdır

"Azərbaycan Dəmir Yolları" QSC-nin Yanacaq və enerji resurslarının idarə edilməsi departamenti beynəlxalq İSO 45001:2018 "Peşə sağlamlığı və təhlükəsizliyinin idarəedilməsi sistemi" standartı üzrə uyğunluq sertifikatını alıb.

Cəmiyyət peşə sağlamlığı və təhlükəsizliyi sahəsində ən yüksək beynəlxalq standartın tətbiqi məqsədilə 2020-ci ildə dünyaca məşhur "Societe Generale De Surveillance" (SGS) şirkəti ilə əməkdaşlığa başlayıb. 2020-ci ilin iyun ayında "Azərbaycan Dəmir Yolları" QSC-nin 25 əməkdaşı SGS-nin təlimlərinə qatılaraq müstəqil audit sertifikatlarını alıb. Cəmiyyətin Yanacaq və enerji resurslarının idarə edilməsi departamenti və digər struktur bölmələrində çalışan bu mütəxəssislər İSO 45001:2018 standartının tətbiqinə nəzarət edəcəklər.

SGS tərəfindən 12 fevral 2021-ci il tarixində keçirilmiş son auditin nəticəsi olaraq Yanacaq və enerji resurslarının idarə edilməsi departamentinin İSO 45001:2018 standartının tələblərinə uyğun fəaliyyət göstərmək üçün hazır olduğu və standart üzrə sertifikatın verilməsi təsdiq edilib.

Sağlam iş şəraitinin təmin edilməsi ilə yanaşı, İSO 45001:2018 standartı əməyin mühafizəsi və təhlükəsizliyi ilə bağlı qanunlara riayət olunması, peşə xəstəlikləri və iş qəzalarının azaldılması, səmərəliliyin yüksəldilməsi, risklərin qiymətləndirilməsi və idarəedilməsi tələblərini də əhatə edir.

"TURKUAZ" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İLK KONTEYNER QATARI BAKIYA ÇATIB

"TURKUAZ" layihəsi çərçivəsində ilk ekspres konteyner blok qatarı Bakıya çatıb. Test qatarı hər biri 45 futluq olmaqla 21 konteynerdən ibarətdir. Qatarla Türkiyədən ölkəmizə 588 ton yük gətirilib.

"Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Konteyner"dən AZƏRTAC-a bildirilib ki, şirkətin Türkiyə və Gürcüstandan olan tərəfdaşları ilə birgə hazırladığı yeni logistik məhsul – "TURKUAZ" ekspres konteyner qatarı həftədə iki dəfə olmaqla İstanbul (Asiya hissəsindən) və Mersin ətrafından Bakıya və əks istiqamətdə yükdaşımalar həyata keçirəcək. "TURKUAZ" ekspres blok qatarının səfər müddəti 6 gündən ibarətdir.

Türkiyədən Azərbaycana və əks istiqamətdə ixrac–idxal yükləri daşıyacaq qatarın müntəzəm olaraq fəaliyyət göstərməsi Bakı-Tbilisi–Qars dəmir yolu ilə daşınan yüklərin həcminin artmasına, bu xəttin imkanlarının genişlənməsinə və rəqabətqabiliyyətinin güclənməsinə təkan verəcək.

"TURKUAZ" ekspres blok qatarı ilə həmçinin Avropadan Türkiyənin Qara dəniz və Aralıq dənizi limanlarına gətirilən yüklərin Azərbaycana çatdırılması nəzərə tutulur.

Qeyd edək ki, xüsusilə pandemiya dövründə, ölkələr arasında nəqliyyat əlaqələrinin məhdudlaşdığı bir şəraitdə dəmir yolu ilə daşımalar bir an da olsun dayanmadı və dəmiryolu öz effektivliyini bir daha göstərdi.

"TURKUAZ" ekspres blok qatarı ilə gətirilən konteynerlər Abşeron Logistika Mərkəzinə çatdırıldıqdan sonra burada yaradılmış müasir A+ kateqoriyalı anbarlara boşaldılacaq. Yüklər çeşidləndikdən sonra yük sahiblərinin ünvanlarına çatdırılacaq.

Azərbaycan "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizində mühüm ölkə olacaq



Hindistanın xarici işlər naziri Subramanyam Cayşankir "Çabahar günü" sammitində çıxış edərək təklif edib ki, İranın Çabahar limanı "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinə daxil edilsin.

AZƏRTAC xəbər verir ki, nazir limanın əhəmiyyəti haqqında danışaraq deyib ki, Cənub-Şərqi Asiya ölkələri ilə Avropa dövlətləri arasında nəqliyyat əlaqəsinin səmərəsini artırmaq üçün Çabahar beynəlxalq dəhlizə daxil edilməlidir. Onun sözlərinə görə, Avropa ölkələri Asiya, Asiya ölkələri isə Avropa bazarlarına yaxın və təhlükəsiz yolla çıxış əldə edə biləcək.

Süveyş kanalında tıxacın yaranması və neqativ nəticələri Asiya dövlətlərini düşünməyə vadar edib. Məsələnin mahiyyəti ondan ibarətdir ki, Cənub-Şərqi Asiya ölkələrindən Avropaya yük daşıyan gəmilər Süveyş kanalından keçməklə 16 min kilometr yol qət edirlərsə, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ilə cəmi 7 min 200 kilometr yol qət edəcəklər. Yüklər 60 günə ərzində deyil, 30 gün ərzində mənzil başına çatdırılacaq. Bununla yanaşı, nəqliyyat xərcləri də 40 faiz düşəcək. Hindistan 20 faiz nəqliyyat xərclərinə qənaət etmiş olacaq.

İqtisadçı analitik Şöhrə Pulab "Chabahar news" saytındakı məqaləsində yazır ki, Çabaharla yanaşı, Oman dənizindəki Şəhid Behişti və Şəhid Kələntəri limanları da dəhlizə qoşula bilər. Bu limanlarda yükləri boşaldıb qatarlara yükləmək imkanına malikdir. Onun fikrincə, İranla yanaşı, idxal-ixrac əməliyyatlarını həyata keçirən Cənub-Şərqi Asiya ölkələri yalnız Avropa ilə deyil, eyni zamanda, Qafqaz, Orta Asiya, Ukrayna, Belarusiya və Pribaltika respublikaları ilə də nəqliyyat əlaqəsi yaradacaqlar. Analitik hesab edir ki, İran tez bir zamanda Çabahar-Zahidan və Rəşt-Astara dəmir yollarını inşa edib istismara buraxmalıdır. Çabahar-Zahidan yolu limanla İranın mərkəzini, Rəşt-Astara yolu isə Azərbaycana çıxışı təmin edəcək.

Beləliklə, Hindistanın Mubai limanında Çabahar limanına daxil olan yüklər Çabahar-Zahidan xətti ilə Rəşt-Astara dəmir yolu vasitəsilə daşınaraq Azərbaycan və Rusiya ərazisindən tranzit olaraq keçərək Qərbi Avropaya çatdırılacaq.

Xüsusi bir məqami qeyd edən analitik nəzərə çatdırıb ki, ABŞ Çabahar limanını sanksiyalardan kənarda saxlayıb. Sanksiyalar Çabahar-Zahidan və Rəşt-Astara dəmir yollarının çəkilişinə maneə olsa da Vyanada aparılan danışıqlar müsbət nəticə verəcək. Rəsmi Vaşinqton İranın nüvə proqramı məsələsini həll etməkdə qərarlıdır və yeni Prezident Co Baydenin seçilən kimi bu problemlə məşğul olmağa başlaması təsadüfi deyil.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas seqmenti olan Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolunun Qəzvin-Rəşt-hissəsi artıq istismara verilib. İran çətinliklərə baxmayaraq, bu yolu inşa edə bildi. Rəşt-Astara hissəsində isə işlər davam edir.

Azərbaycan Respublikası bu layihədə mühüm rola malik olar dövlətlərdən biridir. Tranzit ölkə olaraq Azərbaycan hökuməti ilk növbədə Astara(Azərbaycan)-Astara(İran) dəmir yolu xəttini inşa edərək İran ilə Azərbaycanın dəmir yolları sistemlərini birləşdirib. Bundan başqa, Bakı Limanında yenidənqurma işləri həyata keçirilib və yükaşırma imkanları dəfələrlə artırılıb. Onu da qeyd edək ki, yeni Bakı-Astara avtomobil yolu da çəkilib ki, bu da dəhlizə daxil olan seqmentlərdən biridir.

Yuxarıda deyilənləri nəzrə alaraq qeyd etmək lazımdır ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin fəaliyyətə başlaması üçün yalnız İran ərazisində Çabahar-Zahidan və Rəşt-Astara dəmir yollarının tamamlanması işləri qalır.

İranın şəhərsalma və yollar naziri Məhəmməd İslami cari ilin fevralında Çabahar-Zahidan dəmir yolu xəttinin təməlqoyma mərasimində iştirak edərək bildirib ki, yol 2023-cü ilə kimi istifadəyə veriləcək. Nazir Rəşt-Astara xətinin də həmin ildə istismara buraxılacağını deyib. Proqnozlar özünü doğrultsa, 2 ildən sonra "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi fəaliyyətə başlayacaq və Azərbaycan tranzit ölkə olaraq dəhlizdə mühüm əhəmiyyət kəsb edəcək. Burada söhbət yalnız tranzit gəlirlər əldə etməkdən getmir. Dünyanı Çin, Hindistan, Rusiya kimi iri iqtisadi dövriyyəyə malik olan dövlətləri ilə Azərbaycanın geniş iqtisadi və siyasi əlaqələri yaranacaq. Bu dövlətlər dünya bazarına Azərbaycandan keçməklə çıxdıqlarına görə ölkəmizə qarşı müttəfiqlik siyasəti yürüdəcəklər.

"Azərbaycan dəmir yolu. Tarixə nəzər" kitabı təhsil müəssisələri və kitabxanalara hədiyyə edilib



"Azərbaycan Dəmir Yolları" QSC 23 aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü ilə əlaqədar yeni çap olunmuş "Azərbaycan dəmir yolu. Tarixə nəzər" adlı kitabını ali təhsil müəssisələrinə, eləcə də Mədəniyyət Nazirliyinin nəzdində olan kitabxanalara hədiyyə edib.

Dəmir yollarının yaranmasının 140 illik yubileyi münasibətilə hazırlanmış bu kitab polad magistralımızın tarixini xronoloji ardıcıllıqla, tam və dolğun şəkildə əks etdirən ilk əsərdir. Belə ki, kitabda dəmir yollarının Azərbaycan tarixinin ən vacib məqamları, ölkəmizin iqtisadiyyatı, sosial həyatı və mədəniyyətinin inkişafında oynadığı rol işıqlandırılıb. Həmçinin tarixi araşdırmalarla zəngin kitabda yer almış bir çox fotoşəkil ilk dəfə çap olunub.

Çin-Azərbaycan istiqamətində ikinci konteyner blok qatarı Bakıya çatıb

Çinin Çinqdao şəhərindən ölkəmizə yola salınan ikinci konteyner blok qatarı Bakı Limanına çatıb.

"ADY Konteyner" MMC-dən AZƏRTAC-a bildirilib ki, qatar hər biri 40 futluq olmaqla 51 konteynerdən ibarətdir.

Daşıma Çin Dəmir Yolları (CRCT) və Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumunun üzvləri olan "KTZ Express", "ADY Konteyner" MMC və "GR Logistics and Terminals"ın əməkdaşlığı çərçivəsində həyata keçirilib.

Konteynerlər Aktau limanına çatdıqdan sonra operatoru "ADY Konteyner" MMC olan "Baris" fider gəmisi vasitəsilə Bakı Limanına çatdırılıb. Blok qatara daxil olan 10 konteyner Bakıdan Gürcüstana, 3-ü isə Türkiyəyə yola salınacaq.

Qeyd edək ki, Çinqdao-Bakı marşrutu ilə ilk konteyner blok qatarı bu ilin fevralında Bakıya çatıb.

2021-ci ilin sonunadək "ADY Konteyner" MMC tərəfindən Çin-Azərbaycan istiqamətində 50-dək konteyner blok qatarının nəql olunması planlaşdırılır.

Azərbaycan məhsulları Çində beynəlxalq sərgidə nümayiş etdirilib

Çinin Çindao şəhərində Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) beynəlxalq investisiya və ticarət sərgisi keçirilib.

AZƏRTAC xəbər verir ki, təşkilatın üzvü, müşahidəçisi və dialoq üzrə tərəfdaşı olan dövlətlərin iştirak etdiyi tədbirdə Azərbaycan vahid ölkə stendi ilə təmsil olunub. Stenddə Azərbaycan istehsalı olan 50-dək qida və içki məhsulları nümayiş etdirilir. Bundan başqa, stendimizdə Azərbaycanın investisiya, nəqliyyat-tranzit və turizm potensialı da təqdim edilib.

Sərgi ilə parallel olaraq keçirilən "ŞƏT regional iqtisadi və ticarət əməkdaşlığı forumunun "Ölkələr təqdimatı" adlı əsas panel iclasında Azərbaycanın Çindəki ticarət nümayəndəsi ölkəmizin investisiya potensialı və rəqabətqabiliyyətli məhsulları haqqında təqdimatla çıxış edib. Forumun panel iclasında 200-dək yerli şirkət nümayəndəsi iştirak edib. Sərgi çərçivəsində Azərbaycan nümayəndə heyətinin bir neçə yerli şirkətlə potensial ticarət və investisiya əməkdaşlığına dair görüşləri də keçirilib.

Qeyd edək ki, Çindao Çinin 6 ən önəmli dəniz limanından biri olmaqla yanaşı, əsas iqtisadi mərkəzlərdəndir. Ötən il Çindao şəhərinin ÜDM-in həcmi illik nisbətdə 3,7 faiz ataraq 192 milyard ABŞ dolları olub. Son bir neçə il ərzində Çindao şəhəri ŞƏT-in də iqtisadi mərkəzinə çevirilməkdədir.

ARGENTİNANIN "CLARİN" QƏZETİNDƏ NİZAMİ GƏNCƏVİNİN 880 İLLİYİ MÜNASİBƏTİLƏ MƏQALƏ DƏRC EDİLİB

MUSULMANES

El poeta que rechazó los lujos del palacio por sus creencias

Valores Religiosos

UAI El futuro sos vos

Argentinanın geniş oxucu kütləsinə malik "Clarin" qəzetində dahi şair və mütəfəkkir Nizami Gəncəvinin 880-ci illiyinə həsr olunmuş məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, müəllifi Argentina Respublikası İslam Mərkəzinin mədəni məsələlər üzrə katibi, professor Rikardo Elia olan, "Əqidəsinə görə sarayın dəbdəbəsindən imtina edən şair" başlıqlı məqalədə Nizami Gəncəvinin humanist və sosial islahatçı xarakterli dahi Azərbaycan şairi olduğu bildirilir və onun həyat və yaradıcılığı, xüsusilə dünyada məşhur olan poemalar toplusu "Xəmsə"-si haqqında məlumat verilir.

Müəllif 1924-cü ildə Nizaminin "Yeddi gözəl" poemasını ilk dəfə ingilis dilinə tərcümə edən ingilis mütəxəssisi Çarles Vilsonun istinad edərək, Nizaminin sözügedən əsərində poetik mənada işlətdiyi dərin məcazların izahının ustalıq tələb etdiyini bildirir.

R.Elia Nizami Gəncəvinin əsərlərinin onun yaşadığı dövrə qədər farsdilli ədəbiyyatın bütün nailiyyətlərini, Firdovsinin qəhrəmanlığı, Ömər Xəyyam fatalizmi və Sənai lirikasını özündə əks etdirdiyini, şairin bu zəngin və geniş ənənəni ensiklopedik bilik və dahiyanə şairlik istedadı ilə daha da genişləndirdiyini və onun düşüncələrinin yüksəkliyi və gözəlliyinin hələ də müqayisəsi olmadığını qeyd edir və Azərbaycan şairi haqqında Hafiz Şirazinin sözlərini əlavə edir: "Nizaminin sözlərindəki gözəllik müqayisəedilməzdir".

Nizaminin saray deyil, Xalq şairi olduğunu qeyd edən R.Elia Nizaminin xüsusilə qadınlara qarşı münasibət və yanaşmasının öz əsrinin adətlərinin tamamilə əksi olduğunu, onun əsərlərində qadınların güclü, zərif və kamil xarakterlərinin xüsusilə qabardıldığını, bu ənənənin hazırda da Azərbaycan Respublikasında davam etdirildiyini vurğulayır.

Məqalədə, həmçinin Nizami fəlsəfəsinin rasional və liberal olduğunu, onun dünyaya, təbiətə, tarix, riyaziyyat, astronomiya, tibb elmi və Yunanıstan və Hindistan filosoflarının işlərinə olan marağın şairdə universialist və praqmatik keyfiyyətlərinin formalaşmasında mühüm rol oynadığı bildirilir və 2021-ci ilin Azərbaycanda Prezident İlham Əliyev tərəfindən "Nizami Gəncəvi İli" elan olunduğu qeyd edilir.

BRİTANİYALI JURNALİST "THE TELEGRAPH" QƏZETİNDƏ DƏRC OLUNMUŞ MƏQALƏSİNDƏ AZƏRBAYCANLA BAĞLI TƏƏSSÜRATLARINI BÖLÜŞÜB

Argentinanın geniş oxucu kütləsinə malik "Clarin" qəzetində dahi şair və mütəfəkkir Nizami Gəncəvinin 880-ci illiyinə həsr olunmuş məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, müəllifi Argentina Respublikası İslam Mərkəzinin mədəni məsələlər üzrə katibi, professor Rikardo Elia olan, "Əqidəsinə görə sarayın dəbdəbəsindən imtina edən şair" başlıqlı məqalədə Nizami Gəncəvinin humanist və sosial islahatçı xarakterli dahi Azərbaycan şairi olduğu bildirilir və onun həyat və yaradıcılığı, xüsusilə dünyada məşhur olan poemalar toplusu "Xəmsə"-si haqqında məlumat verilir.

Müəllif 1924-cü ildə Nizaminin "Yeddi gözəl" poemasını ilk dəfə ingilis dilinə tərcümə edən ingilis mütəxəssisi Çarles Vilsonun istinad edərək, Nizaminin sözügedən əsərində poetik mənada işlətdiyi dərin məcazların izahının ustalıq tələb etdiyini bildirir.

R.Elia Nizami Gəncəvinin əsərlərinin onun yaşadığı dövrə qədər farsdilli ədəbiyyatın bütün nailiyyətlərini, Firdovsinin qəhrəmanlığı, Ömər Xəyyam fatalizmi və Sənai lirikasını özündə əks etdirdiyini, şairin bu zəngin və geniş ənənəni ensiklopedik bilik və dahiyanə şairlik istedadı ilə daha da genişləndirdiyini və onun düşüncələrinin yüksəkliyi və gözəlliyinin hələ də müqayisəsi olmadığını qeyd edir və Azərbaycan şairi haqqında Hafiz Şirazinin sözlərini əlavə edir: "Nizaminin sözlərindəki gözəllik müqayisəedilməzdir".

Nizaminin saray deyil, Xalq şairi olduğunu qeyd edən R.Elia Nizaminin xüsusilə qadınlara qarşı münasibət və yanaşmasının öz əsrinin adətlərinin tamamilə əksi olduğunu, onun əsərlərində qadınların güclü, zərif və kamil xarakterlərinin xüsusilə qabardıldığını, bu ənənənin hazırda da Azərbaycan Respublikasında davam etdirildiyini vurğulayır.

Məqalədə, həmçinin Nizami fəlsəfəsinin rasional və liberal olduğunu, onun dünyaya, təbiətə, tarix, riyaziyyat, astronomiya, tibb elmi və Yunanıstan və Hindistan filosoflarının işlərinə olan marağın şairdə universialist və praqmatik keyfiyyətlərinin formalaşmasında mühüm rol oynadığı bildirilir və 2021-ci ilin Azərbaycanda Prezident İlham Əliyev tərəfindən "Nizami Gəncəvi İli" elan olunduğu qeyd edilir.

The Telegraph

Azerbaijan: the fascinating country you never thought to visit

Welcome to the 'Dubai of the Caspian Sea'

KORONAVİRUS TƏHLÜKƏSİ İLƏ ƏLAQƏDAR YARADILAN QƏRARGAH FƏALİYYƏTİNİ DAVAM ETDİRİR

Koronavirus xəstəliyinin dəmir-yol nəqliyyatında yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativliyini təmin etmək məqsədilə "Azərbaycan Dəmir Yolları" QSC-nin və tabeçiliyində olan qurumların rəhbər şəxslərindən ibarət qərargah yaradılıb.

Bununla yanaşı, Bakı Dəmir Yolu Vağzalının qaynar xətti fəaliyyət göstərir: +994 12 499 61 11

ÇİN NƏŞRİ BAKI-TBİLİSİ-QARS DƏMİR YOLUNDAN BƏHS EDƏN MƏQALƏ YAYIB

Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti də daxil olmaqla Çin ilə Avropa arasında nəqliyyat dəhlizlərindən bəhs edən məqalə yerləşdirilib.

CGTN

Modern railway routes to soon revive Great Silk Road

Djoomart Otorbaev 163

Share

Landscape scenery outside Osh, Kyrgyzstan. /Getty

Editor's note: Djoomart Otorbaev is the former prime minister of Kyrgyzstan, a professor of the Belt and Road School of Beijing Normal University, and a member of Nizami Ganjavi International Center. The article reflects the author's views, and not necessarily those of CGTN.

TOP NEWS

China's top legislature adopts amended annexes to HKSAR Basic Law

China 12:17, 30-Mar-2021

China vows to safeguard developing countries' right to development

Azərbaycan Dəmir Yolları QSC-nin və tabeçiliyində olan qurumların rəhbər şəxslərindən ibarət qərargah yaradılıb.

Bununla yanaşı, Bakı Dəmir Yolu Vağzalının qaynar xətti fəaliyyət göstərir: +994 12 499 61 11

Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti də daxil olmaqla Çin ilə Avropa arasında nəqliyyat dəhlizlərindən bəhs edən məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, Qırğızıstanın sabiq Baş naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Comart Otorbayevin müəllifi olduğu məqalədə Şərq-Qərb, Şimal-Cənub dəmir yolu marşrutlarının beynəlxalq ticarət üçün perspektivlərindən söz açılıb. Qeyd olunub ki, həmin nəqliyyat dəhlizləri Çin iqtisadiyyatının və beynəlxalq ticarətinin sürətli inkişafı ilə bağlıdır.

Müəllif XX əsrin sonunda Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinin müstəqillik qazanması ilə qeyd olunan istiqamətlər üzrə beynəlxalq yüklərin daşınması imkanının yarandığı, müvafiq infrastrukturun yaradılması üçün işlərin aparıldığını qeyd edib. Bu xüsusda Çindən yüklərin dəmir yolu ilə Mərkəzi Asiya və Cənubi Qafqaza, oradan Qara dəniz, Türkiyə və Aralıq dənizi vasitəsi ilə Avropaya çatdırılmasının ən qısa yol olduğunu vurğulayan C.Otorbayev yazır ki, bu marşrutun ən vacib halqalarından olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti 2017-ci ilin oktyabrında istifadəyə verilib. Həmin xətt ildə bir milyon sərnişin və 15 milyon ton yükün daşınması imkanına malikdir.

"Müasir dəmir yolu marşrutları tezliklə Böyük İpək Yolunu canlandıracaq" başlıqlı məqalədə Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə ötən il 20 TEU ekvivalentdə 10 mindən çox konteynerin daşındığını, bu yol ilə yüklərin Çindən Avropaya 12-15 günə çatdırıldığını, 2019-cu ildə Çinin Sian şəhərindən çıxan ilk yük qatarının Bakı-Tbilisi-Qars dəmir yolu ilə Türkiyəyə, oradan da Praqaya çatdığını yazır. Ötən ilin dekabrında isə Türkiyədən ilk yük qatarı təxminən 8700 kilometr məsafə qət edərək Sian şəhərinə gəlib.

ZƏRBAYCAN DƏMİRYOLÇUSU

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 1 saylı "ASAN Kommunal" Mərkəzinin açılışında iştirak edib

Dövlətimizin başçısı səyyar "ASAN qatar" ilə tanış olub

"AZƏRBAYCAN DƏMİRYOLÇUSU" QƏZETİNƏ ABUNƏ YAZILIŞI BAŞLANIB

ƏZİZ OXUCULAR!

2021-ci ilin 2-ci yarısı üçün respublika və xarici ölkələrin qəzet və jurnallarına abunə yazılışı başlanıb.

"AZƏRBAYCAN DƏMİRYOLÇUSU" qəzeti də bu kampaniyada öz sadiq oxucularına arxalanıb iştirak edir.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətində baş verən yeniliklərdən, dəmiryolçuların qayğı və problemlərindən xəbərdar olmaq istəyirsinizsə, "AZƏRBAYCAN DƏMİRYOLÇUSU" qəzetinə abunəçi olun.

İndeks: 0006. Altı aylıq abunə qiyməti - 2 manat 40 qəpik.

"AZƏRBAYCAN DƏMİRYOLÇUSU" qəzetinə abunəçi olmağa tələsin!

1822

QAYNAR XƏTT

+994 12 499 48 95

Azərbaycan Dəmir Yolları QSC/Azerbaijan Railways CJSC

www.ady.az

Redaktor:
Vasif SÜLEYMAN

Yaradıcı heyət
- Gülnaz ƏLİYEVA (red. müavini)
- Elbariz MƏMMƏDLİ (müxbir)
- Allahverdi ƏLİYEV (müxbir)
- Zahid QURBANOV (fotoqraf)

Ünvanımız: Bakı. Azd 371010. D. Əliyeva küçəsi, 230.
"Azərbaycan Dəmir Yolları" QSC
Telefonlar: 499-43-19; 499-63-91
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə uyğun gəlməyə bilər.
Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş, "Vətənoğlu" Nəşriyyat və Poliqrafiya MMC-nin mətbəəsində çap olunmuşdur.

Lisenziya AB N 022560. Qeydiyyat nömrəsi B 360
Bizim materiallardan istifadə edərkən qəzetə istinad edin.
Azərbaycan Dəmir Yolları QSC/Azerbaijan Railways CJSC
ady_qsc
www.ady.az
Sayı 800. Sifariş 071